Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Çəkdiyi rəsmlə başlayan uğur hekayəsi
# Uolt Disney

**Uolt Disneyin 120 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2021**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**“Çəkdiyi rəsmlə başlayan uğur hekayəsi”** - Uolt Disneyin 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021.**

# GİRİŞ

Uolt Disney müasir Avropa kinematoqrafiyasında hakimlik edən çoxsaylı nağıl və multiplikasiyanın əsl ustadı idi. Ömrünü elə də xoş keçirməyən Uolt Disney 1918-ci ildə hərbi xidmətə getmək istəyir, ancaq yaşının azlığı ona bu istəyini reallaşdırmağa imkan vermir. Belə olan halda o, tibb sahəsinə yönəlir və xaricə göndərilərək, bir il sanitar maşınında sürücü işləyir. Kanzas–Sitiyə qayıtdıqda Uolt kommersiya studiyalarının birində bədii direktor kimi işləməyə başlayır. Burada o, gənc rəssam Ayverksomla tanış olur və onlar bir yerdə studiya açırlar. Onlar qısa zaman ərzində işlənmiş kamera əldə edərək, xronometrajı 2 dəqiqə olan reklam çarxları çəkirlər. Az sonra onlar Hollivud kino sənayesinə yaxın olmaq üçün studiyalarını Los Ancelesə köçürürlər. Amma Uolt multiplikasiyaya olan həvəsini boğa bilmir. Bir gün o, cibində 40 dollarla şəhərdən çıxıb getmək istədikdə qardaşı Royla rastlaşır. Onlar bütün pullarını toplayıb 500 dollar da borc pul götürür və əmilərinin qarajında Disney Brothers studiyasını açırlar. Və burada "Alisa möcüzələr ölkəsində" ilk multipikasiya filmlərini yaradırlar. 1923-cü il oktyabrın 16-da qardaşlar New York distributoru Marqaritlə filmin çəkilişi üçün müqavilə bağlayır və studiyanın adını Uolt Disney company kimi dəyişirlər. 1948-ci ildə Uolt Disney multiplikasiya ilə yanaşı, özünün məşhur rəngli təbiət filmlərinin istehsalına başlayır. Bununla paralel olaraq o, uşaq filmləri üzərində də işləyir. 1955-ci ildə Disney Kaliforniyada “Attraksionlar parkı” adlı ilk Disneylandi açır. Ötən əsrin 60-cı illərində Disney Amerikada şəhər həyatını yaxşılaşdırmaq məqsədilə bir neçə layihə həyata keçirir. O, Manhettendən iki dəfə böyük ərazi olan istifadəsiz torpaq sahəsi alır. Burada əyləncə mərkəzləri, kurortlar,

mehmanxanalar, gələcəyin aeroportunu yerləşdirərək yeni Disney dünyası yaratmağı planlaşdırır. Ancaq şəhərciyin açılışı Uolt Disneyin ölümündən çox sonra, 1971-ci ildə baş tutur. Kaliforniyada İncəsənət İnstitutu da elə onun adı ilə bağlı olur. Daha bir universitet şəhərciyi isə Los-Ancelesin şimal-şərqində, Valensia şəhərində yaradılır. Bu şəhərcikdə musiqi və təsviri sənətlə yanaşı, kinematoqrafiya, teatr, heykəltaraşlıq və moda tədris olunur. Uolt Disney hər şeydən əvvəl multiplikatordur. Onun filmlərini elə indi də, həm böyüklər, həm də uşaqlar sevəsevə izləyirlər. Disney 1966-cı ildə dünyasını dəyişib. O, təltif olunduğu Oscarların sayına görə çempion hesab olunur. Uolt 59 dəfə namizədi olduğu bu mükafatın 26-sını əldə etməyi bacarıb. Bu vəsaiti hazırlamaqda məqsədimiz sizləri bu cizgi filmlərinin yaradıcısı kimi tanınan Uolt Disneyin anadan olmasının 120 illik yubileyi münasibətilə kitabxanada keçirilə biləcək layihələrlə tanış etməkdir. Vəsait rejissorun həyat və yaradıcılığından, yubileyi münasibətilə keçirilən tədbirlərdən – sərgi, guşə, slaydların hazırlanmasından, adı ilə bağlı məşhur Disneyland parkı haqqında maraqlı məlumatlardan bəhs edir.

## Haqqında

Uolt Disney 5 dekabr 1901-ci ildə Çikaqoda irland, ingilis və alman əsilli çox kasıb bir ailədə dünyaya göz açmışdır. Karikatura rəssamı olan və 1919-cu ildən etibarən Kanzas Siti şəhərində yaşayan Disney daha sonralar reklam şirkətinə daxil olaraq burada A. Ayverksomla birgə işləməyə başlayır. Onlar birlikdə Disneyin məşhur qəhrəmanlarının hazırlanması ilə məşğul olur, eyni zamanda karikaturalar çəkərək - Gülməyin qramı adlı film yaradırlar. Beləliklə onların ilk reklam çarxları meydana gəlir. Özünün çox da böyük olmayan - Laf-o qramz adlı şəxsi şirkətini quran Uolt Disney, bu işi başlayarkən çox böyük vəsait sərf etməsə də, işini uşaqları sevərəkdən görür. Vaxt ötdükcə o, çox sevilir. Onun çəkdiyi rəsmlərdən, nağıl filmlərindən ibarət olan *"Qırmızı papaq", "Çəkməli pişik"* və başqa nağıllardan götürülən, iki hissədən ibarət olan cizgi filminə bənzəyən - Alisa möcüzələr ölkəsində adlanan ilk cizgi filmi ona böyük şöhrət gətirir.

Uşaqlıq illərini ehtiyac içərisində keçirən Disney, yeniyetmə ikən hər gün səhər tezdən durub, qapı-qapı dolaşaraq qəzet paylayar, işinin ardınca gedərdi. Fəqət bu işindən qazandığı pul çəkdiyi əziyyətin müqabilində çox-çox az olurdu. Buna görə də o, özünə daha yaxşı bir iş axtarırdı. Lakin təhsili olmadığına görə üz tutduğu hər bir qapı üzünə bağlanırdı. Buna baxmayaraq onun oxumağa çox böyük həvəsi vardı. Disney günlərin birində yenə Çikaqo küçələrində iş axtararkən yol kənarındakı kitab köşkünə yaxınlaşaraq kitablarla maraqlanır. Özü-özünə " Pulum olsaydı, bunların hamısını alıb, oxuyardım " - deyə düşünür və sonda yalnız birini ala bilir. Aldığı kitabın arxasında - Kanzas Siti Sənət İnstitutu sizi ödənişsiz kurslara dəvət edir! elanını oxuyur. Çox keçmir ki Uolt Kanzas Siti Sənət İnstitutunun kurslarına

qatılır və orada gələcək məsləkdaşı olan Ab Ayverkslə dostlaşır. Kursu bitirdikdən sonra iki dost özlərinə aid bir cizgi filmi şirkəti qura bilirlər. Lakin, hər şey gözlədikləri kimi alınmır və şirkəti bağlamaq məcburiyyətində qalırlar.

Bir müddətdən sonra Uolt Disney, qardaşı Roy Disney və Ab Ayverks Hollivudda bir araya gələrək yaradıcılıq güclərini birləşdirib – " Alisa cizgi filmi diyarında " adlı cizgi filmini çəkirlər. Amma yenədə uğur qazanmırlar. Yenədə həvəsdən düşməyib "Dovşan Osvald " adlı başqa bir cizgi filmini çəkirlər. Amma bu film də tamaşaçılar tərəfindən bəyənilmir. İstedadlı Uolt uğursuzluğun uğursuzluq ardınca gəldiyini görüb pərişan halda Çikaqoya dönür. Burada o, rəsm çəkib küçələrdə satmağı qərara alır. Bu məqsədlə evinin arxasındakı anbardan emalatxana kimi istifadə etməyə başlayır.

Bir müddət sonra Uolt öz rəsmləri ilə yenidən Hollivuda - qardaşı Roy və dostu Ub İverksin yanına qayıdır. Onlar --Disney Company şirkətini qurmağı qərara alırlar. İlk işləri əsas personajı Disneyin sevimli siçanı – Mikki Maus olan —Uillinin buxarlı qayığı adlı cizgi filmini çəkmək olur. Qeyd edək ki, bu filmə qədər cizgi filmləri səssiz çəkilirdi, lakin Uolt Disneyin təkidi ilə bu cizgi filmində ilk dəfə olaraq səsin sinxronlaşdırma texnologiyasından istifadə edilir.

Disneyin arzusu gerçəkləşir, - Uillinin buxarlı qayığı bütün seyr rekodlarını üstələyir. Sonrakı illərdə sərvətinin hamısını rəngli, səsli, altı saatlıq - dünyanın ilk uzun cizgi filminə sərf etməyə qərar verir. Film tam üç ilə çəkilir. Filmin məsrəfi 1,5 mln dolları aşmağa başlayınca Disneyin şirkəti iflasın astanasına gəlir. Beləcə dünyanın ilk bahalı cizgi filmi - Ağbəniz və yeddi cırtdan ərsəyə gəlir. Bu cizgi filmi Disneyə tam 8 mln dollar qazandırır. Uğurlar artır. Mikki Maus, Donald Dakk, Dippi,

Pinokio kimi personajları ilə milyonlarca insanın könlünü fəth edən Uolt Disneyi - dünənə qədər heç kəsin tanımadığı bu adamı indi hamı tanımaq istəyir. Reklamçılardan tutmuş, geyim-oyuncaq fabriklərinin sahiblərinədək hər kəs onun qəhrəmanlarının şəkillərindən istifadə etmək üçün izn istəyirlər. Disney öz qəhrəmanlarını təkcə ekrandan deyil, daha yaxından tanıtmaq üçün Kaliforniyada - *Disneyland,* Floridada - *Disney World* kimi əyləncə parklarını açır. Uolt Disneyin ən böyük hazırladığı fəaliyyətlərdən biri olan uşaqlar üçün nəzərdə tutulmuş Kaliforniyada yaradılan bu parkda atraksion üsullarını özündə birləşdirən və filmində olan personajlar vardır. Həmin obyekt 1955-ci ildən açıq elan edilmişdir.

Bir az əvvəl söylədiklərimiz uşaqlığını yoxsulluq və iztirab içərisində yaşayan Uolt Disneyin hekayəsi idi. Əlavə edək ki, uşaq ikən sevinməyə heç bir şeyi olmayan bu adam sonradan milyonlarla uşağın çöhrəsinə gülüş bəxş edib və bu əziyyətin bəhrəsi olaraq 29 Oskar mükafatına layiq görülüb.

## Mikki Maus və onun dostları

Disneyin çəkdiyi *“ Dəlicəsinə təyyarə ”* adlı cizgi filmində onun yeni personajı olan **Mikki Maus** siçanı meydana çıxır və kütlədə çox böyük maraq döğurur. Bu tipli ilk cizgi filmi 1928-ci ildə çəkilir. Bəs Mikki Maus siçanını yaratmaq ideyası rejissorda haradan doğur? Özünün yazdığına görə, rejissor bir gün emalatxanada rəsm çəkməklə məşğul olarkən birdən yanında nəyinsə səs



saldığını eşidir. Başını qaldırıb taxçada kiçik bir siçan görür. İşini saxlayıb siçanı seyr etməyə başlayır. Siçanın sanki rəqsə bənzər qəribə hərəkətlər etdiyini sezir. Günlər ötdükcə Disneylə siçanın dostluğu başlayır. Bir gün o, siçanın qəribə hərəkətlərini rəsmə köçürmək fikrinə düşür. Beləcə çəkdiyi bu rəsmlər heç fərqinə varmadan Uolt Disneyi cizgi filmi kralına çevirir. Qəhrəmanları arasında yaratdığı Mikki Maus həmişə istifadə edilən cizgi filmi personajı olur və 1932-ci ildə Disney, Mikki Mausa görə Oskar mükafatına layiq görülür. Beləliklə, ötən əsrin otuzuncu illərinin əvvəllərində Disneyin xüsusilə heyvanlara aid personajları xalq arasında daha böyük maraq obyektinə çevrilir. 1933-cü ildə isə Disney dünyada ilk dəfə olaraq rəngli cizgi filmi çəkir. O, yeni böyük uğurunu çəkdiyi "*Üç donuz balası*" adlı filminə görə qazanır. İngilis nağıllarının motivləri əsasında hazırlanan bu film ona 1933-cü ildə ikinci dəfə Oskar mükafatını qazandırır.

*"Ağbəniz və yeddi cırtdan"* la Disney ilk dəfə olaraq yarımmetrajlı filmə müraciət edir. Bu, onun 1937-ci ildə *" Walt Disney Pictures "* studiyası tərəfindən istehsal edilən ilk klassik qısametrajlı cizgi film sayılır. Film Qrimm qardaşlarının eyniadlı əsəri əsasında hazırlanır.




Bu filmin ssenarisinə görə isə o, 1938-ci ildə Venesiyada keçirilən Beynəlxalq film festivalının mükafatına layiq görülür.

İkinci dünya müharibəsindən sonra onun studiyası artıq sifariş edilmiş filmlər çəkməyə başlayır. Bu filmlər aşağıdakılardır:

*1950-ci ildə Venesiya Beynəlxalq Festivalının mükafatçısı olmuş “ Göyçək Fatma ”,*

- *1951-ci ildə “ Alisa möcüzələr ölkəsində ”,*
- *1953-cü ildə “ Piter Pen,”*
- *1955-ci ildə “ Xanım və avara ”,*
- *1959-cu ildə “ Yatmış gözəl ”,*
- *1961-ci ildə “ Yüz bir dalmatin ”,*
- 1964-cü ildə əsasən aktyor və cizgilərin köməyi ilə yaradılmış
- Meri Poppins,
- Cəngəllik kitabı filmi isə 1967-ci ildə Disneyin ölümündən sonra tamamlanır.

*“ Snow White and the Seven Dwarfs ”* cizgi filmi isə Disneyin ilk uzunmetrajlı cizgi filmi sayılır. Məlumat üçün deyək ki, bu filmin istehsalı onun studiyasını demək olar müflis vəziyyətinə salır. Yalnız bankdan aldığı kredit hesabına Disney bu filmi tamamlaya bilir. Amma 1937-ci ildə filmin premyerası alqışlarla qarşılanır. Bu filmin uğuru Disneyə Kaliforniyanın Burbank şəhərində Uolt Disney studiyası qurmağa imkan verir.

1940-cı ildə isə onun - “ *Pinokio və Fantaziya* ” adlı cizgi filmi ekranlara çıxır. Təəssüf ki, yeni cizgi filmi də maliyyə baxımından uğurlu olmur. *“Dumbo”* cizgi filminin çəkilişləri zamanı isə Disneyin işçiləri tətil edir. Uolt Disney maliyyə böhranı yaşayır. Nəhayət onun azbüdcəli *“Dumbo”* filmi ekranlara çıxır və film onlara böyük gəlir gətirir.

1940-cı ildə müharibənin başlanması, Amerikanında İkinci Dünya Müharibəsinə qoşulması ilə federal hökumət Disney studiyasından təşviqat xarakterli müharibə filmləri istehsal etməsini istəyir.

Amma öz ideyalarını yalnız səhnədə həyata keçirməklə kifayətlənməyən Disney diqqətini dünyanın ilk əyləncə mərkəzlərindən olan Disney əyləncə parkını planlaşdırmağa və inşa etdirməyə yönəldir.

Disneylandda aktyorlar onun yaratdığı cizgi filmlərindəki obrazlar kimi geyinir, onlar kimi hərəkət edirlər. Disneyland ailələrin cizgi filmləri dünyasına səyahəti, maraqlı anlar yaşaya bilmələri üçün macaralı bir məkana çevrilir. Onun bir arzusuda Disney parkın ətrafında dəmir yolu çəkilməsi idi. Məqsədi isə qızını və dostlarını miniatür Karolvud qatarında gəzdirmək idi. O bilirdi ki bu, parka gələnlər üçün yaxşı əyləncə olacaqdı.

1946-cı ildə Disney şöhrətli sürrealist rəssam Salvador Dali ilə eksperiment kimi yeni animasiya film üzərində işləməyə başlayır. Bu zaman onun şirkəti növbəti dəfə maliyə böhranı keçirir və filmin çəkilişləri təxirə salınır. Sonralar filmin üzərində yenidən işlənilir və animasiya cizgi filminin olduqca gözəl alınması keçmişdə onun klassik nağılları interpritasiya etməsini tənqid edənlərə layiqli cavab olur. Qeyd edək ki, onun - Yatan Gözəl və - Sinderella filmləri uşaqlar üçün çəkilmiş dünyanın ən yaxşı filmləri siyahısına daxil edilir. Qeyd edək ki, Uolt Disneyin çəkdiyi klassik cizgi filmləri musiqisi və bədiiliyinə görədə heç vaxt yeniliyini itirmir.

1964-cü ildə studiyanın yeni istehsalı, bədii və cizgi filmlərinin sintezi olan *“ Mary Poppins* ” filmidə studiyaya çox böyük uğur qazandırır. Təəssüf ki, həddindən çox siqaret çəkən Uolt Disney ağcıyər xərçənginə yoluxur və iki il sonra 65 yaşında vəfat edir.

## Kitabxanada keçirilməsi nəzərdə tutulan onlayn tədbirlər

Məktəbyaşlı uşaqların kitabxanaya cəlb edilməsi işində cizgi filmlərinin, animasiyaların nümayişinin müsbət rolu vardır. Çünki cizgi filmləri gerçəkliyi əks etdirmənin ən yaxşı vasitələrindən biri sayılır. Bu filmlərin təsiri ilə uşaqlar gülür, sevinir, ağlayırlar. Cizgi filmlərinin uşaqlar üçün çox maraqlı olduğunu nəzərə alaraq, onlara sevimli nağıl qəhrəmanlarının yaradıcısı olan Uolt Disneyin 120 illiyi (1901-1966) ilə əlaqədar kitabxanada "Uolt Desney və cizgi filmləri həftəsi " keçirmək məqsədəuyğundur. Müvafiq vəziyyətdə bu tədbir onlayn şəkildə təşkil ediləcəkdir. Onlara onlayn şəkildə Uolt Disney kimdir?, Uşaqlar onu niyə sevir?, " Disneylanda birlikdə səyahət edək" və s. başlıqlı məlumat çarxları hazırlaya bilərik. Bu video çarxları kitabxananın https://clb.az/ saytında facebook və instaqram səhifəsində yerləşdiririk. Uşaqlar bununla da, əyləncəli cizgi filmini izləyəcək, filmin əsasında çəkilən nağılların müəlliflərini tanıyıb onların əsərlərini oxumağa çalışacaqlar. Bu tədbirlər vasitəsilə uşaqların mütaliyə həvəsinin artdığının şahidi olacaqsınız. Tədbirin təşkili üçün ilk əvvəl "Cizgi filmləri həftəsi" haqqında pandemiya ilə əlaqədar onlayn fəaliyyət göstərən kitabxanaın sosial şəbəkələrində oxuculara məlumat verilir. Kitabxananın facebook səhifəsində uşaqların daha çox hansı cizgi filminə baxmaq istədiklərini metodist bilmək üçün sorğu təşkil edir. Sonra isə nümayiş etdiriləcək filmlər seçilir. Sayta *"Uolt Disney dünyası"* başlığı ilə hər gün izləmək üçün bir cizgi filmi yerləşdirilir və haqqında qısa məlumat verilir.

**Sərgilər**

Kitabxanalarda sərgilərin təşkili təbliğat formasının ən geniş yayılmış formalarından biridir. Yubilyardan bəhs edən sərgini *“ Cizgi filmləri ustası - Uolt Disney ”, “ Uolt Disney - 120 ”* adlandırmaq olar. Sərgiyə müəllifin kitabları, qəzet və jurnallarda verilən məlumatlar yerləşdirilir.


















Onlar bu kitablarla onlayn şəkildə kitabxananın https://www.clb.az/ saytına daxil olub, tanış ola bilərlər.

Kompleks sərgilərdən biri də, müxtəlif xüsusiyyətli fonoqramların köməyi ilə tərtib olunan danışan kitab sərgiləri, videofilmlər təqdim etməklə hazırlanan sərgilərdir. Kitabxananın facebook səhifəsində yubilyarın CD diskləri ilə oxucuları tanış etmək üçün “ *Disneyin Cizgi film qəhrəmanları* ” başlıqlı slayd təqdim olunur.

# Foto sərgi

Uolt Disneyin kim olduğunu kiçikyaşlı oxuculara tanıtmaq üçün fotolardan ibarət slayd hazırlanır.






**Guşə**

Sərgiyə nisbətən daha geniş və əhatəli olan kiçikyaşlılar üçün hazırlanmış kitab nümayişləri onlara metodiki tövsiyə baxımından əhəmiyyətlidir. Guşələrin təşkilində hər zaman əsas məqsəd oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etmək, onları kitaba mütaliəyə həvəsləndirməkdir. Rus dilində tövsiyə xarakterli nəşr olan "*Учим Английский с героями дисней*" seriyalı nəşrlər bu baxımdan maraqlıdır. Bu kitablarda Disneyin nağıl qəhrəmanlarının dilindən uşaqlar üçün müxtəlif əyləncəli oyunlar, testlər, düşündürücü suallar və məlumatlar vardır. Bu kitabları əldə etməklə onlar zehni düşüncələrini daha da möhkəmləndirə bilərlər. Onlayn rejimdə fəaliyyət göstərən kitabxanada bu kitabları oxuculara facebook səhifəsində " İngilis dilini Disneyin nağıl qəhrəmanları əsasında öyrənmək daha maraqlıdır " başlığı ilə tanıda bilərik.



Дональд Авиатор
https://drive.google.com/file/d/1i8SYyoRe3Uo9PhG98qJdHU4vdxiU0ZIK/view?usp=sharing
Книга джууглей 2
https://drive.google.com/file/d/1bO3oN78k7p9EdhqpoQSJHFXpl0qx_aEj/view?usp=sharing
Спящая красавица
https://drive.google.com/file/d/1Ut425DXhgHoBpwubhAHBt1wUD6E4pBLL/view?usp=sharing
Великие герои
https://drive.google.com/file/d/111hPDBb3R3GRAXAFw-ucjd-dGeOfza-p/view?usp=sharing
Книга джууглей
https://drive.google.com/file/d/1c-qesicota9-7eMrdNaD3QuueedoZGdg/view?usp=sharing
Миссия Дарвина
https://drive.google.com/file/d/1loS-VRpHrnIe9D69Upng99NDpKsPL1Io/view?usp=sharing

Yubilyarın yaradıcılığını məktəbli oxuculara daha yaxından tanıtmaq üçün onlayn şəkildə  bir sual- bir cavab oyununun, viktorinaların  təşkili məqsədəuyğundur. Uolt Disneyi ən yaxşı tanıyan oxucu kitabxananın müdiriyyəti tərəfindən hədiyyə ilə mükafatlandırılır.

1. Uolt Disney kimdir?

___________________________________

2. Onun hansı cizgi filmlərinə baxmısınız?

_____________________________________

3. İlk dəfə dünyada Uolt Disney tərəfindən yaradılan rəngli cizgi filmi hansıdır?

a. Üç donuz balası
b. Mauqli
c.Sindirella

4. Mikki Maus personajı xoşunuza gəlirmi?

a. hə
b. yox

5. Mauqli Cizgi filmi hansı yazıçının əsəri əsasında hazırlanıb?

Qrimm qardaşları – —Sindirella
Redyard Kiplinqin – —Cəngəllik kitabı
Şarl Pero – —Çəkməli pişik

6. Uolt Disney filmlərinə görə necə dəfə Oskar mükafatı alıb?

A 15
B 29
C 25

8) Disneyin "Qnomların yeni mənzili" adlı nağılı nədən bəhs edir?

___________________________________________

9) Sindirella cizgi filmi hansı əsərin qəhrəmanı əsasında çəkilib?

a) Ağca xanım və dovşanlar
b) Qrimm qardaşları- —Zoluşka
c) Mauqli

10) Məşhur Disneyland parkı haqqında nə bilirsiniz?

_______________________________________

**"Qnomların yeni mənzili" nağılı əsasında – Kitabxanada onlayn şəkildə nağıl qəhrəmanlarını özümüz yaradaq adlı oyun təşkil etmək olar.**

Nağılda qnomların öz yeni mənzillərinə köçüb bayram etmələrindən danışılır. Uşaqlar SD diskdə nağılı dinləməklə və ya kitabxanaçı həmin nağılı onlayn oxumaqla tanış olurlar. Oyun zamanı uşaqlar plastilindən bu nağıl personajlarını - qnomları öz fikirləşdikləri kimi hazırlamağa başlayırlar. Bunlar Professor; Deyingən; Güləyən; Utancaq; Həpçi; Yatağan və Laldinməzdir.

Onlar bir gün öz aralarında fikirləşirlər ki, yeni mənzilə köçsünlər. Yeni mənzillərdə qnomların hər birinin çarpayısı və mətbəxi vardır. Bura onların çox xoşuna gəlir. Yeni mənzildə belə bir qayda-qanunda vardı: heç kim əl-üzünü yumamış süfrəyə otura bilməzdi. Qnomlar yeni mənzilə köçməni bayram etmək fikrinə düşürlər. Öncə evi səliqəyə salan qnomlardan Həpçi dayanmadan asqırır. Yatağan isə öz çarpayısında uzanıb yatır. Güləyən isə dayanmadan zarafat edir, gülür, lakin çox

ləzzətli yeməklər hazırlayır. Utancaq isə uzun müddət hansı işi görəcəyi qərarını verə bilmir. Yaxşı yemək bişirsə də, utancaqlığından bu bacarığını başqalarına deyə bilmir. Nəhayət, o, da ləzzətli yeməklər hazırlamağa başlayır. Artıq nahar süfrəsində hər şey hazır olur. Öncə əl-üzlərini sabunla yuyan qnomlar bundan xoşlanırlar. Bu hal xüsusilə Lal-dinməzə çox xoş gəlir. Təzə və gözəl evdə hər şey öz yerindədir. Süfrəni yığdıqdan sonra əylənmək üçün Deyingən musiqi alətində ifa edir. Onlar günlərini təzə evdə beləcə şad - xürrəm keçirirlər.
Nağıl belə bitir.

## “Disney və onun nağıl qəhrəmanları” adlı sərgi

*Uolt Disneyin müraciət etdiyi müəlliflərin əsərlərini toplayıb kitabxanada buklet, sərgi, slaydlar hazırlaya bilərik. Bu bukletləri virtual şəkildə oxucuların ixtiyarına veririk. Bu sərgidə uşaqlar Disneyin yaratdığı personajları deyil, həm də onları yazan müəlliflərlə də tanış ola bilərlər.*

### *“Sindirella”*

-Yatan Gözəl və Sinderella cizgi filmləri uşaqlar üçün dünyanın ən yaxşı filmləri siyahısına daxildir.



—Sindirella və ya —Zoluşka — Şarl Pero, Qrim qardaşları və Pentameronun qələmə alınan variantları ilə məşhurlaşan Qərbi Avropa nağılıdır. Bu dünyada ən məşhur gəzən süjet olub, müxtəlif xalqların folkloruna töhvəsini verib. Bu nağılın ən qədim forması Misir papiruslarında aşkar edilib. Əsərin əsas qəhrəmanı Yunanıstanda doğulan Rodopis adlı bir qızcığazdır. Əfsanəyə

görə onu dəniz quldurları oğurlayaraq Misirə aparır və orada kölə kimi satırlar.

**Ağbəniz və Yeddi Cırtdan”**

İlk dəfə 1812-ci ildə milliyətcə alman olan Qrimm qardaşları tərəfindən toplanaraq çap edilən xalq nağılıdır. Nağıl pis qəlbli və qısqanc ögey anası tərəfindən ondan daha gözəl olduğu üçün öldürülmək məqsədilə meşəyə göndərilən və orada cırtdanlarla birlikdə yaşayan bir şahzadənin macəralarından bəhs edir. Bu nağıl bir neçə dəfə tamaşaya qoyulub və ekranlaşdırılıb.



**“MAUQLİ” - “Cəngəllik kitabı”**




―Cəngəllik kitabı‖ cizgi filmi 1967-ci ildə istehsal olunub. Bu əsər Disneyin ―Walt Disney Pictures‖ studiyası tərəfindən istehsal edilən ondoqquzuncu klassik qısametrajlı cizgi filmidir. Filmin rejissoru Volfqanq Reyterman, prodüseri isə Uolt Disneydir. Film ingilis yazıçısı Redyard Kiplinqin ―Cəngəllik kitabı və ―Cunqlinin ikinci kitabı əsasında ekranlaşdirilib. Cizgi filminin 1994-cü ildə Cəngəllik kitabı remeyk filmi, 2003-cü ildə davamı olan Cəngəllik kitabı 2 cizgi filmi çəkilib.

**Onlayn görüş**

*Kamillik və xöşbəxtlik məkanı adlı Disneyland dünyasına səyahət. Bizim bu xoşbəxt məkana xoş gəlmisiniz! Disneyland sizin ölkənizdir. Burada kamillik yenidən keçmişin ən əziz xatirələrini yaşayır, cavanlıq isə gələcəyin vədləri və çağırışlarından həzz alır.* Disneyland yaranmış ideallara, arzu və real faktlara həsr olunub. Ümid edirik ki, bu, dünya sizin üçün sevinc və ilham mənbəyi olacaq.

Yuxarıdakı başlıqlarla uşaqların sevimlisi Disney yaradıcılığının şah əsəri sayılan məşhur Disneyland parkı ilə oxucuları kitabxana tərəfindən hazırlanmış virtual sərgilərlə tanış edə bilərik. **"Kamillik və xoşbəxtlik məkanı", "Disneyland dünyasına səyahət", "Dünyanın ən xoşbəxt yeri"** başlıqlı videocarxlar, videoroliklərlə bu əyləncə məkanına səyahət etmək çox maraqlı olar uşaqlara.

Videoçarxda istifadə edəcəyiniz maraqlı məlumatları sizlərlə bölüşürük. Bu çarxı hazırlamaqda məqsədimiz sizinlə birgə uşaqların sevimlisi, cizgi filmlərinin kralı kimi tanınan Uolt Disneyin yaratdığı məşhur —Disneylanda səyahət etməkdir.

Öncə bu nəhəng cizgi filmi ustası ilə tanış olaq: Bu il 120 illik yubileyi qeyd edilən Disney çox kasıb bir ailədə dünyaya göz açmışdır. O, böyük zəhməti hesabına uşaqların sevimlisinə çevrilmişdir. Onun qurduğu ***"Walt Disney Pictures"*** şirkəti bu gün də bütün nəsillər üçün əsas film mənbəyi hesab edilməkdədir. Çoxlu çətinliklərlə qarşılaşan rejissor əvvəlcə Kanzas Siti şəhərində karikatura rəssamı işləyərəkən dostu ilə bir yerdə özünün məşhur qəhrəmanlarının hazırlanması ilə məşğul olub, karikaturalar çəkərək - Gülməyin qramı adlı filmini yaradıb. Böyük zəhmətlə hazirladığı qısametrajlı cizgi filmi, ilk dəfə olaraq ekrana çıxan tam mətnli cizgi filmi olub.

Təşkil etdiyi məşhur *“Disneyland”* parkı isə dünyanın ən şirin və möcüzəli məkanıdır. O yer sanki bir nağıllar diyarıdır. Sehrbaz Uolt Disneyin ən böyük arzusu olan bu nağıllar diyarının gerçəkləşməsi 17 iyul 1955-ci ildə Disneyland Resortun qonaqpərvər qapılarını açmaqla reallaşıb. Həmin gün Amerikalı *multiplikasiya kralı* və uğurlu biznesmen Uolt Disney uşaqlar və valideynləri üçün möhtəşəm əyləncə parkının təntənəli açılış mərasimini keçirir. Açılış mərasimini ABŞ-ın gələcək prezidenti aktyor Ronald Reyqan aparır. Parkın yaradılmasına, belə demək olarsa, ürəyini qoymuş rəssam özünün və parkın digər yaradıcılarının fantaziyasından istifadə edib. Mikki-Maus və onun dostlarının, cizgi filmlərinin və nağılların sehrli dünyası parkın divarlarında geniş əksini tapıb. Bu tamamilə orijinal və bənzəri olmayan, dörd əsas prinsip üzərində yaradılan park olub:

1. - Öncə Uolt Disneyin cizgi filmlərinin sehrli krallığını yenidən qurmaq. Daha sonra müxtəlif və yeni texniki tryukların əlavə olunması ilə ziyarətçilərdə elə təəssüratlar yaratmaq ki, sanki onlar cəngəlliklər arasındadırlar.Üçüncüsü, qonaqlar sanki qarşılarında ruhları görürlər. Sonuncu məqsəd sanki ziyarətçilər dənizin dibində, sualtı gəmidə oturublar.

Video ilə birlikdə məlumat gedir ekranda: Burada Əvvəl attraksionların sayı 16- ya, giriş bileti isə 1 dollara bərabər olan Disneylandda hazırda olduğu kimi ziyarətçiləri girişdə Mikki-Maus, Ağbəniz və Yatmış Gözəl qarşılayırdı. Daha sonralar onların sırasına Disneyin cizgi filmi qəhrəmanlarından olan Pinokkio və Vinni-Pux da qatılır. Disneyland tez bir zamanda ABŞ-ın görməli yerlərindən birinə və ailəvi istirahət üçün sevimli məkana çevrilir.

Əbəs yerə Disneylandı dünyanın ən xoşbəxt yeri saymırlar. Burada qonaqları Uolt Disneyin: - *Disneyland Amerikanı yaratmış ideallara, arzu və real faktlara həsr olunub. Ümid edirik ki, bu, dünya üçün sevinc və ilham mənbəyi olacaq" səsi salamlayır.* Park üç hissəyə bölünüb. Birinci hissə – simvolu Yatmış Gözəlin Qəsri olan Disneyland Parkının özüdür. - İkinci hissə – 2001-ci ildə açılmış —Disney's California Adventure Parkdır. Bu ərazi Qızıl Ştatın tarixinə və mədəniyyətinə həsr olunmuşdur və simvolu Kaliforniya canlı təbiətinin rəmzi olan Qrizli ayısının siluetini xatırladan süni Grizzly Peak dağıdır. Eyni vaxtda Disney's California Adventure ilə birlikdə üçüncü zona – Downtown Disney yaradılıb. Bu kompleks bir neçə attraksion və teatrdan, 12 zallı kinoteatr, mağaza, restoran, bar və oyun əşyalarında ibarətdir.

Grizzly Peak (Qrizli Zirvəsi) - Kaliforniyanın rəmzi Disneyland Resortun qonaqları Disney studiyasının sevimli animasiya və bədii filmlərinin əsl qəhrəmanları ilə ünsiyyətdə ola və fantastik attraksionlarda əylənə bilərlər. Parkda gündəlik paradlar və atəşfəşanlıq təşkil edilir. Disneylandın küçələrində orkestrin müşayiəti ilə Mikki-Maus və Donald Dak digər cizgi filmi qəhrəmanları ilə birlikdə gəzirlər. Parkda hər yerdə monorels, parovoz, fayton və ya funikulyor görmək olar. Funikulyorla parkın gözəl mənzərələrini seyr etmək mümkündür. Disneylandın yaranmasından indiyədək onu 500 milyon qonaq, o cümlədən kral ailəsi, prezidentlər və dövlətin digər rəsmiləri ziyarət edib. Disney parklar şəbəkəsi hazırda da genişlənməkdədir. Belə ki. indi Anahaym şəhərində yerləşən ilk Disneylanddan başqa, Florida ştatında (ABŞ) Disneyworld, Parisdə (Fransa) Avro-Disneyland, Tokio-Disneyland (Yaponiya) və Honqkonqda (Çin) Disneyland fəaliyyət göstərir.

*(Adları çəkilən ölkələrin Disneylandları haqqında monitorda ayrıca məlumat verə bilərik).*

Uolt Disney özündən sonra getdikcə daha da şöhrətlənən və ildə 22 milyard dollar gəlir gətirən dünyanın ən gözəl və maraqlı əyləncə mərkəzinin əsasını qoyub. Uolt Disneyin kim olduğu və onun multiplikasiyanın inkişafı üçün nələr etdiyi barədə çox danışmaq olar. Cizgi filmləri istehsalında ixtisaslaşan The Walt Disney media imperiyası 1926-cı ildən mövcuddur. Disneyin yaradıcı fəaliyyətinin əhəmiyyəti barədə 29 Oskar daxil olmaqla, çoxsaylı mükafatlar artıq onun haqqında şox şey deyir.

Əgər dünyada haradasa cizgi filmi planeti varsa, Disney orada böyük bir qitədir. Bu qitədə sehrbazlar, xeyirxah heyvanlar, cəsur və gözəl şahzadələr yaşayır...

**Ədəbiyyat siyahısı:**

**Azərbaycan dilində:**
Disney U. Qnomların yeni mənzili // Nağıla bax, nağıla: I hissə.- S.24-26. - Bakı, 2012.

**İnternetdə:**https://ru.wikipedia.org/wiki
http://www.disneylandparis.ru **,** https://az.wikipedia.org

**Rus dilində**

Волшебный мир Диснея [Электронный ресурс] :
Волшебный мир Диснея [Электронный ресурс] :

Дисней У. Питер Пэн в Нетландии: Сказки. - М.: Эгмонт Россия Лтд, 2003. - 80 с.

Дисней У. Книга джунглей: художественная литература. - Эгмонт Россия Лтд, 2002. - 80 с.
Дисней У. Похождения императора: художественная литра. - М.: Эгмонт Россия Лтд, 2002. - 80 с.
Дисней У. Похождения императора: художественная литра . - М. : Эгмонт Россия Лтд, 2002. - 80 с.
Дисней У. Планета Сокровищ: Рассказы. - М.: Эгмонт, 2002. - 80 с.
Дисней У. Планета Сокровищ: Рассказы. - М.: Эгмонт, 2002. - 80 с.
Дисней У. Книга Джунглей 2: художественная литература. - М.: Эгмонт Россия Лтд, 2003. - 80 с.
Дисней У. Спящая красавица: Сказки: Эгмонт Россия Лтд, 2003. - 80 с.
Дисней У. Дамбо: художественная литература; - М.: Эгмонт Россия Лтд, 2002. - 80 с.
Дисней У. Не Бей копытом: художественная лит-ра; - М. : Эгмонт Россия Лтд, 2004. - 96 с.
Дисней У. 102 Далматинца: художественная лит-ра. - М.: Эгмонт Россия Лтд, 2001. - 80 с.
Учим английский с героями Диснея. Дом, милый дом: книжка с наклейками: Академия Смартбук, 2006. - 32 с
Учим английский с героями Диснея. Животные: научнопопулярная литература.: Академия Смартбук, 2007. - 32 с. Учим английский с героями Диснея. Игры и игрушки: научное издание. - Ярославль: Академия Смартбук, 2007. -
32 с

Учим английский с героями Диснея. Всё о погоде: научнопопулярная литература. - Ярославль: Академия Смартбук,
2007. - 32 с.
Учим английский с героями Диснея. В городе: научнопопулярная литература. - Ярославль: Академия Смартбук,
2006. - 32 с.
Учим английский с героями Диснея. Каникулы: научнопопулярная литература. - Ярославль: Академия Смартбук,
2006. - 32 с.
Учим английский с героями Диснея. Мой дом: научнопопулярная литература. - Ярославль: Академия Смартбук,
2006. - 32 с.
Учим английский с героями Диснея. Скоро в школу!: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2007. - 32 с
Учим английский с героями Диснея. Приятного аппетита!: научно-популярная литература. - Ярославль: Академия Смартбук, 2006. - 32 с.

# Çəkdiyi rəsmlə başlayan uğur hekayəsi
# Uolt Disney

(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**